(Əvvəli 7-ci səhifədə).

# Beş illik zəfər tarixi və vətənpərvərlik

yaşatmaq deməkdir. Qəbələdə şəhidlər hər zaman ziyarət olunub, ailələrinə baş çəkilib, dərdlərinə ortaq olunmuşdur. Əlbəttə, vətənpərvər insanlar tərəfindən.

Rayon icra hakimiyyətinin başçısından kiçik yaşlı məktəblilərədək hər kəs şəhidimizə ən ali insan, insanlığın ən ali pilləsinin adamı kimi baxmışdır. Xüsusilə mənəviyyatca zəngin insanlar. Mənəviyyatı, vətənpərvərliyi öz xarakterik xüsusiyyətləri ilə ətrafa sezdirən, hiss etdirən insanlar daima şəhid ailələrinin yanında olanlardır.

2020-ci ilin iyul ayından etibarən rayonumuzun tək qəzeti - mətbu orqanı olan "Qəbələ" ("Qəbələ səsi") qəzetinin hər bir nömrəsində vətənpərvərlik mövzusunda müxtəlif səpkilərdə məqalə, zarisovka, reportaj, oçerk, müsahibələr, ələlxüsus qazilərlə görüşlər keçirilmiş, müsahibələr alınaraq materiallar dərc olunmuşdur. Qəbələ şəhidləri haqqında nəşr olunan kitablar haqqında, onların təqdimat mərasimlərini əks etdirən yazılar da qəzet səhifələrində öz əksini tapmışdır. Həmçinin bütün şəhidlərimizin ad günləri və anım günlərinin keçirildiyi tədbirlər qəzetimizin səhifələrində işıqlandırılmışdır.

SEBA Azərbaycan Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası (layihə rəhbəri Ruhəngiz Heydərovadır) tərəfindən ümumi halda Qəbələ şəhidləri haqda kitab nəşr olunmuşdur.

Dilçi alim, filologiya üzrə fəlsəfə doktoru, dosent Rəna Əlyar qızı Məmmədova qəbələlidir. O, 1988 - 1996-cı illərdə Zarağan kənd 1 saylı orta məktəbində müəllim,dərs hissə müdiri vəzifəsində çalışmışdır. Rəna Əlyarqızı hazırda Bakı Slavyan Universitetinin müəllimidir. O, hüquqşünas şəhidimiz Ceyhun Salıyevin xalasıdır. Ceyhun Salıyev haqqında şəhid anasının düşüncələrini əks etdirən "Şəhid Ceyhun dastanı" kitabını Rəna xanım ürək ağrısı, həm də qürurla qələmə almışdır. Onu da qeyd edək ki, Ceyhun Salıyev Bakı şəhərində dəfn olunmuşdur.




Bildiyimiz kimi, rayonumuzda "Qəbələnin səsi" və "Qəbələ yazarlarına dəstək" ictimai birlikləri fəaliyyət göstərir. Burada publisist, nəzm və nəsrlə yazan yaradıcı insanlar toplaşmışlar. Onların yaradıcılıqlarının əsas məğzi də məhz vətənpərvərlik mövzusudur. Bu beş il ərzində hər bir qələm əhli öz şeirləri, poemaları, hekayə və oçerkləri ilə oxucular arasında tanınmışlar. Onlar şəhidlərə aid tədbirlərdə öz şeirlərini, çəkdikləri rəsmləri, nəşr etdirdikləri kitabları şəhid ailələrinə təqdim etmişlər. Qərib Hüseynov, Emin Baratoğlu, Şəhla Xəlilqızı, Cəlil Xeyirbəy (Komradlı), Mirhəsən Ağayev, Elza Dəniz Nur, Bibixanım İsayeva, Oğuz rayonundan birliyimizin üzvü olan Sədaqət Oğuzlu, şəhid bacılarından Həzin Atakişiyeva (şəhid Rüstəm Atakişiyev), Gülanə Nəsrullayeva (şəhid Aydın Bayramov) məhz şəhidlər haqqında kitab nəşr etdirərək bu günün oxucularına və gələcək nəsillərə sənədli xatirə yaratmışlar.

Həmçinin hər iki birliyin üzvləri nəşr etdirdikləri kitablarda, almanax və toplumlarda şəhidlər, onların valideynləri haqqında, igid döyüşçülərimiz haqqında şeir və müxtəlif yazılarla çıxış etmişlər. Onlar - Rəna Azaklı, Elmira Abdurahmanqızı, Şükufə Oğuzlu, Zinyət Tahirova, Fəxrəddin Babayev, Ceyhun Əlyaroğlu, Aynur Dərya, Asim Məmmədov, Mənsurə Ağayeva, Vüsal Qafqazi, Şəfəq Ələsgərqızı, Aysel Qəbələli, Əhməd Məmmədli, Mərziyə Qəbələli, Natəvan Yusifova, Saray, Bahar, Reyhan və Səmayə bacıları, İnci Hümmətova, Aqşin Mənəfov və başqaları şəhidlər haqqında şeirlərini almanax və toplumlarda dərc etdirmiş və şəhid ailələrinin evlərində təşkil olunmuş şəxsi şəhid muzeylərinə təqdim etmişlər.

Onu da qeyd edək ki, rayonumuzun fəxri müəllimlərindən olan Simuzər İbrahimova əməkdaşı olduğu "Qanun keşiyində" qəzetində şəhidlərimiz və qazilərimiz, döyüşçülərimiz haqqında bütün nömrələrdə müxtəlif səpgilərdə yazılarla çıxış etmiş və edir. Qəzet nümunələri şəhidlərin şəxsi muzeylərinə, döyüşçülərə təqdim olunur.

Cəlil Xeyirbəyin (Komradlı) şəhidlər haqqında yazdığı şerləri həm rayonumuz, həm də qonşu rayonların oxucularının ürəklərinə yol tapır. Tək oğul övladı şəhid olan Cəlil Xeyirbəy (şəhid Xeyirbəy Səfərçinovun atası) təkcə qəbələli şəhidlər haqqında deyil, məzarlarını ziyarət etdiyi başqa rayon şəhidlərinə də şerlər ithaf etmişdir. İstedadlı şairimiz hər il şəhid balaların mövludunda və anım günlərində onlara təkbətək yeni şerlər ithaf edir və onları ürəyinin yanğısı ilə əzbərdən söyləyir, bədahətən deyir. Vətənpərvərlik mövzusunda hələ gənc yaşlarında şeirlər yazan şair öz şeirlərində şəhid və döyüşçülərimizin qəhrəmanlığını demək olar ki, tam mənada ifadə edir.

Kitabları nəşr olunan Rəna Azaklı, Şəhla Xəlilqızı, Fəxrəddin Babayev, Zinyət Tahirli, Elza Dəniz Nur, Sədaqət Oğuzlu, Qərib Hüseynov, Mirhəsən Ağayev, Cəlil Xeyirbəy, Emin Baratoğlu, Elmira Abdurahmanqızı və başqaları bu kitablarda da şəhidlik mövzusuna daha geniş yer vermişlər.

Onu da qeyd edək ki, ilin sonunadək bir neçə müəllifin də şəhidlik mövzusunda kitabları nəşr olunacaqdır. Şəhidlərin xatirəsini əbədiləşdirmək üçün bulaqlar, xatirə kompleksləri tikilir, barelyeflər, büstlər hazırlanır, Ancaq mətbu orqanlarında, kitablarda əbədiləşən xatirələr nəsilbənəsil yaşayacaq, qəhrəmanlıq tarixini yazanlar tarixi xronologiyada yer alaraq "ömürlərinə" əsrlər yazacaqlar. Bu beş illik zəfər tarixi aybaay, ilbəil daha da oxunaqlı, geniş və əhatəli, zəngin faktlarla əks olunan kitablar, dastanlarla sonrakı tarixə qədəm qoyacaq.

Şəhidlər və qazilər haqqında çəkilən sənədli filmlər, ən gözəl kinofilmlərə çevrilərək, şeirlərə daha çox mahnılar bəstələnərək, daha çox rəsm əsərləri çəkilərək, yazılan əsərlər səhnələşdirilərək xalqın bu günü və sabahı üçün əbədiləşdiriləcək. Zəfər tarixini yenidən yazanlar bəşər tarixinin müdavimləridir. Onlar əbədi yaşayacaqlar və onları xalq yaşadacaq.

**BİBİXANIM.**

# Tibb və psixologiya, qürurvericilik...

(Əvvəli 7-ci səhifədə).

Ambassadoru təyin olunmuşdur. Elmi nailiyyətləri ölkəmizdə və onun hüdudlarından kənarda uğurla təqdim olunan azərbaycanlı alim, professor Y.S.İbadovun tibb sahəsində olan elmi yenilikləri yüksək qiymətləndirilmiş və Avroasiya ölkələri üzrə "Enerqoinformasion diaqnostika və müalicə üsulu" adında 29 dekabr 2005-ci il tarixli patent almışdır.

Oksford Akademiyasının akademiki, "Alternativ Psixologiya" elminin müəllifi, tibbi-biologiya elmləri doktoru, professor, Beynəlxalq Ekoenergetika Akademiyasının Vitse Prezdenti, "Tibbi biologiya və Ekologiya" Departamentinin direktoru İbadov Yaşar Saday oğlunun "Tibb və Təhsildə Birgə İnteqrasiya" layihəsinin (Spikir) Qəbələ Konfransında cıxışı maraqla qarşılanmışdır.

Akademik Yaşar İbadov İnsanlığın xilasına öz elminin gücü ilə töhfələr verir. Onun həm nəzəri, həm də praktik nəticələri, müəllifi olduğu "Alternativ psixologiya" elminin metodologiyası əsasında İnnovativ İxtiraları (saat əqrəbinin əks istiqamətində hərəkət edən saatları, harmonizatorları və s.) vardır. Onun elmi yenilikləri hər bir fərdin, ətraf aləmin, həmcinin təbiətdə harmoniyanın bərpasına xidmət edir. Xoşbəxtliyini İnsanların sağlamlığına xidmətdə görən Yaşar həkim üçün dünyada ən böyük dəyər insanlıqdır. Öz elmi və xidmətləri ilə dünyada Vətənimizi təmsil edən akademik Yaşar Saday oğlu İbadovun uğurları qururvericidir.

Akademik Yaşar Saday oğlu İbadovu növbəti uğuru münasibətilə təbrik edirik. Sağlıqlı, xoşbəxt ömür payınız olsun. Səmərəli fəaliyyətinizdə yaradıcılıq uğurları diləyirik.

**Zülfiyyə VƏLIYEVA,**
**Respublikanın Əməkdar Müəllimi, Azərbaycan Jurnalistlər Birliyinin üzvü.**

QƏBƏLƏ SƏSİ

qəzetinə

2026-cı ilin birinci yarısı üçün abunə yazılışına başlanmışdır.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ29AİİB 400400K9446609778149 VÖEN 4402717261*



Qızılı payız

## İTMİŞDİR

**Hüseynova Ülviyyə Ələkbər qızına** məxsus buraxılış ili 2010, VOLKSWAGEN POLO markalı, XETÇBEK tipli minik avtomobilinin AC № 873934 nömrəli q**eydiyyat şəhadətnaməsi itdiyi üçün** etibarsız sayılır.

Baş redaktor
Azad Məmmədov

TƏSİSÇİ:
Azad MƏMMƏDOV

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: 050 318 90 24
(024) 204-19-14
Ümumi: (024) 204-15-56
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində 05.09.2025-ci il tarixdə DBF71BC4180C07 nömrəli media reyestri şəhadətnaməsi ilə qeydiyyatdan keçmişdir

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az29AİİB 400400K9446609778149 VÖEN: 4402717261

«Qəbələ səsi» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 900*